**Bakı şəhəri Nərimanov Rayon**
**Məhkəməsinin hakimi**
_______________________________

_______________ saylı mülki iş üzrə
İddiaçı _______________________________ qızının səlahiyyətli nümayəndəsi və vəkili ___________________oğlu tərəfindən (order ________, əlaqə telefon nömrəsi: ________________ )

**_________20__-ci il tarixində keçirilmiş məhkəmə iclasının protokoluna dair**

**QEYDLƏR**

İcraatınızda olan ____________ saylı mülki iş üzrə _________ 20___-ci il tarixində keçirilmiş məhkəmə iclasının protokolu ilə tanış olaraq, aşağıdakı qeydləri nəzərinizə çatdırıram.

1. Məhkəmə iclasının protokolunda iddiaçının izahatı qısa şəkildə göstərilərək, iş üçün mühüm əhəmiyyəti olan məqamlar göstərilməmişdir. Belə ki, iddiaçı məhkəməyə bildirmişdir ki, “mənim tələb etdiyim 2000 manat cavabdehin özü tərəfindən boşanma ərəfəsində hesabladığı məbləğdir”. Protokolda bu məqam göstərilməmişdir.
2. Bundan başqa, iddiaçı məhkəmədə iddia tələblərini əsaslandırmışdır. O, qeyd etmişdir: “Bizim oğlumuz ”__XXXX____” Tam Orta İnnovasiyalar Məktəbinin Britaniya istiqamətinin 4-cü sinfində oxuyur və bu məktəbdə illik təhsil haqqı 19 000 manat təşkil edir. Cavabdeh demişdi ki, bu vəsaiti ödəyəcək. Uşağın həmin məktəbə nəql olunması üçün məktəb tərəfindən ayrılan avtobus xidmətinə əlavə olaraq ayda 200 manat məbləğində vəsait ödənilir. Nəzərə almaq lazımdır ki, uşaq ABŞ-də doğulub və ilk məktəb illərini orada təhsil alıb, bu üzdən uşağın BSB-də təhsilini davam etməsi əsas şərtlərdəndir. Bundan əlavə, uşaq idmanla və musiqi ilə də məşğul olur. Gündəlik tələbat və yemək xərcləri, Azərbaycanda kirayə mənzildə yaşaması da nəzərə alınsa, onun saxlanılması üçün lazımi vəsaitin məbləğini müəyyən etmək olar (mənzil kirayəsi və təhsil müqavilələri tələb etdiyim alimentin miqdarını əsaslandırır).

Əslində, boşanma ərəfəsində cavabdehlə bununla bağlı qeyri-rəsmi anlaşmışdıq, cavabdeh 4 ay ərzində bütün xərcləri, hətta tələb olunandan da artıq ödəyirdi. Bəzən ayda beş min, bəzən altı min manat ödəyirdi. Bütün bu xərclərdən cavabdeh agahdır və əvvəllər uşağı bu cür həyat tərzinə alışdıran da cavabdeh özüdür. Buna cavabdehin maddi imkanları var idi və indi də qazancı buna yol verir. Cavabdehin bildirdiyi kimi, onun qazancı qeyri-müntəzəm olsa da, bu qeyri-müntəzəmlik 1000 və ya 5 000 manat arasında deyil, ayda 18 000 ABS dollarından (30 600 AZN) 25 min ABŞ dolları (42500 AZN) arasında dəyişir (bununla bağlı məhkəməyə rəsmi sənəd təqdim etmişik). Uşağın xərcləri isə 2000 manat təşkil edir. Bu məbləği cavabdeh şəxsən təklif etmiş və ödəyəcəyi barədə vəd vermişdi. Amma mediasiya zamanı nə oldusa, öz təklifindən imtina etdi. Mənim tələb etdiyim aliment məbləği cavabdehin ən aşağı qazancının on beşdə bir hissəsindən az məbləğdir. Qanunla isə qazancının dörddə bir hissəsini (yəni ən azı 7650 AZN) ödəməlidir. Xahiş edirəm qərar qəbul edərkən bu işin xüsusiyyətlərini nəzərə alasınız və uşağın əvvəlki yaşayış tərzinin mümkün qədər maksimal səviyyədə saxlanmasını təmin edəsiniz. Cavabdehin ödəməyə razı olduğu 300 manat məbləğində vəsait uşağın xərclərini ödəmir. Hal-hazırda mən tərcümə mərkəzində tərcüməçi vəzifəsində işləyirəm, lakin qazancım çox aşağıdır, ayda işin həcmindən asılı olaraq 450-700 manat maaş alıram”.

Məhkəmə protokolunda isə qısa olaraq yazılıb ki, “İddiaçı 2000 AZN məbləğində aliment tələb etdi və bildirdi ki, cavabdehin buna imkanı var”. Hesab edirik ki, alimentin

məbləğinin əsaslandırılması iş üçün mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən məhkəmə iclasının protokolunda bunun dəqiq göstərilməsi vacibdir. Nəzərə almaq lazımdır ki, iclas keçirilən gün məhkəmə audio-video yazılışı texniki səbəblərdən baş tutmamışdır. Bu situasiyada protokolun dəqiq və ətraflı yazılması işin düzgün həlli üçün əvəzedilməzdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 273-cü maddəsinə əsasən, "İşdə iştirak edən şəxslər və nümayəndələr, həmçinin vəkillər protokolla tanış olmaq hüququna malikdirlər və onun imzalandığı andan 3 gün ərzində burada yol verilmiş yanlışlıqları və ya natamamlığı göstərməklə, protokol barədə yazılı qeydlər təqdim edə bilərlər".

Yuxarıda göstərilənləri nəzərə alaraq və Azərbaycan Respublikası MPM-nin 273-cü maddəsini rəhbər tutaraq, məhkəmədən

**XAHİŞ EDİRƏM:**

__________20___-ci il tarixində keçirilmiş məhkəmə iclasının protokoluna yuxarıda göstərilən qeydlərin düzgünlüyünü təsdiq edib, onları protokola əlavə edəsiniz.

İmza ___________/ iddiaçının səlahiyyətli nümayəndəsi və vəkili

Tarix : ___________________